Leznik & Co. LANDAU SCHOOL

# “HAZIRLIQ MƏKTƏBİ”

# ŞAGİRDLƏRİ VƏ VALİDEYNLƏRİ ÜÇÜN

## 2024/2025 tədris ili
## TƏLİMAT

**MÜNDƏRİCAT**


**HİSSƏ 1: ÜMUMİ MƏLUMATLAR**

A. “Hazırlıq Məktəbi” ilə tanışlıq
B. Rabitə vasitələri
C. 2024/2025 tədris ili üçün məktəb təqvimi
D. Dərs cədvəli
E. “Hazırlıq Məktəbi”nin qaydaları
F. Sinif otağında davranış qaydaları
G. Məktəb geyimi kodeksi / Məktəbli forması / Xarici görünüş

**HİSSƏ 2: “Hazırlıq Məktəbi”nin SİYASƏTİ VƏ PROSEDURLARI**

H. Məktəbə qəbul, siniflərə yerləşdirmə və məktəbdən çıxarılma
I. Akademik dəstək dərsləri
J. Davamiyyət
K. Qiymətləndirmə və imtahanlar
L. Davranış
M. Şikayətlər
N. Sağlamlıq və təhlükəsizlik
O. Ev tapşırığı
P. Tibbi xidmət
Q. Onlayn idarəetmə sistemi (LANDAU School onlayn platforması sistemi)
R. Məktəb üzrə qida tədarükü
S. Ad günləri
T. Qiymətli əşyalar
U. Məktəbdəki elektron avadanlıqlar
    a. Mobil telefonlar
    b. Planşetlər
AA. Məktəb ləvazimatları
BB. Valideynlərlə əlaqə
CC. Məktəb binası
EE. Milli himn

## HİSSƏ 1: ÜMUMİ MƏLUMATLAR

### A. “Hazırlıq Məktəbi” ilə tanışlıq

Bu təlimatın məqsədi - LANDAU School “Hazırlıq Məktəbi”nin **şagird və valideynlərinə** məktəbin siyasəti və prosedurları haqqında müvafiq məlumatı verməkdən ibarətdir. Məktəbin siyasəti valideynlərlə bütün səviyyələrdə müzakirə olunur və öhdəliklərimizi yerinə yetirmək üçün ağıllı, səmərəli və ardıcıl vasitələr təmin etməyi qarşısına məqsəd qoyur. Bu qaydalar şagirdlərə və valideynlərə kömək edir və onları istiqamətləndirir. Əməl etməli olduğunuz məktəb qaydaları rəsmi sənədlər hesab olunur. Müvafiq qaydalara əməl etməyən şagirdlər və valideynlər nizam-intizam tədbirlərinin həyata keçirilməsi üçün zəmin yaradırlar. Bu Təlimat məktəbə qəbul haqqında müqavilənin tərkib hissəsidir. Təlimata dəyişikliklər edilərsə və yaxud yenilənmə baş verərsə, şagirdlər və valideynlər bu barədə xəbərdar ediləcəklər.

LANDAU School “Hazırlıq Məktəbi” - şagirdlərin qarşılarına qoyduqları məqsədlərinə çataraq gələcəklərini qura biləcəkləri bir yerdir. Uşaqlar bir təhsil müəssisəsində bir həftə ərzində keçirilən **üç saatlıq tədris rejimi** sayəsində orta təhsillərini müvəffəqiyyətlə başa vur və buraxılış imtahanlarına **(attestat)**, eləcə də xarici və yerli universitetlərə qəbul üçün (**SAT, IELTS və TOEFL** nəticələri üzrə) hazırlaşa biləcəklər.

Məktəb Lev Landaunun adını daşıyır. Dahi fizik Azərbaycanda doğulmuş, böyümüş və təhsil almışdır. 1962-ci ildə fizika üzrə Nobel mükafatı ilə təltif olunmuşdur. Bizim məqsədimiz yeni istedadlı gənclər yetişdirmək və başqalarını öyrətməyə və istiqamətləndirməyə hazır olan ağıllı gənclik formalaşdırmaqdır.

LANDAU School “Hazırlıq Məktəbi” Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi tərəfindən qeydiyyata alınmış sertifikatlı özəl məktəbdir.

Tam təhsil kursunu bitirdikdən sonra biz şagirdlərimizə “Ümumi orta təhsil haqqında attestat” (9-cu sinif) və “Tam orta təhsil haqqında attestat” (11-ci sinif) təqdim edirik.

Biz valideynlərin uşaqların təhsilində mühüm rolunu nəzərə alırıq, məktəb, valideynlər və uşaqlar arasında etibar hissi və möhkəm əlaqələr yaratmağa çalışırıq. LANDAU School “Hazırlıq məktəbi”ndə hər bir şagird üçün strukturlu və balanslı təhsil mühiti təmin edirik.

**Şüarımız:**

Build Your Future! (Построй своё будущее! / Öz gələcəyini qur!)

**Konsepsiya:**

- Hər bir şagirdi özünü daim inkişaf etdirməsi üçün həvəsləndirmək və istiqamətləndirmək

**Baxış:**

- İnkişaf etməkdə olan ölkələrin tam potensialına çatmalarına dəstək məqsədilə müsbət dəyişiklikləri həyata keçirə bilmələri üçün şagirdləri müvafiq təfəkkür, bilik və bacarıqlarla təmin etmək

**Dəyərlər:**

- Dürüstlük və şəffaflığa ən yüksək səviyyədə riayət etmək və qoruyub saxlamaq
- Hətta çətin olduğu anlarda belə, hər zaman həqiqəti söyləmək
- Hətta heç kim görməsə belə, mənəvi cəhətdən düzgün olanı etmək
- Hər kəsə nəzakət və hörmətlə yanaşmaq
- Qərəzsiz və obyektiv olaraq, hər kəsdən yüksək məsuliyyət standartlarına əməl etməyi tələb etmək

Şagirdlərə ən yaxşı tərəflərini inkişaf etdirmələrinə imkan yaratmaq

- Şagirdlərə çağırışları qəbul edən və səhvləri öyrənmək imkanları kimi görən inkişaf təfəkkürünü aşılamaq
- Şagirdlərə müsbət nümunə olmaq məsuliyyətini daşımaq
- Şagirdlərə öz istəklərini və istedadlarını araşdırmaq və reallaşdırmağa kömək etmək
- Şagirdləri şəxsi hədəflər qoymağa və onlara nail olmaq üçün yorulmadan çalışmağa həvəsləndirmək
- Güclü şəxsi dəyərlər və prinsiplər hissini aşılamaq

Müstəsna həmkarlar üçün yol göstərici olmaq

- Əməkdaşlıq mədəniyyətini və birgə məsuliyyət hissini inkişaf etdirmək
- Mentorluq  və əks əlaqə vasitəsilə həmkarların şəxsi və peşəkar inkişafına töhfə vermək
- Ortaq məqsədlərimizə çatmaq üçün fikrinizi paylaşmaq
- Tədbirlər görmək və nəticələri tam bağlılıq və məsuliyyətlə qəbul etmək

## B. RABİTƏ VASİTƏLƏRİ

Veb-səhifə: www.landauschool.com; www.leznik.az
Elektron poçt: contact@landauschool.com; contact@leznik.edu.az
Korpus: "Zabitlər"
Çağrı mərkəzi: *3170

***<u>Vacib qeyd:</u> WhatsApp nömrələrinə telefon zəngləri qəbul edilmir***

Ünvan: Bakı, Nəsimi rayonu, Abay döngəsi 360, 9H.

## C. “Hazırlıq Məktəbi”nin 2024/2025 tədris ili üçün təqvimi

1-ci yarımil:

2 sentyabr – 18 yanvar (20 həftə)

2-ci yarımil:

21 yanvar – 14 iyun (21 həftə)

Sentyabr:

02.09.2024 Tədris ilinin başlanması / 1-ci semestrin başlanması
27.09.2024 İkinci Qarabağ Müharibəsinin başlama günü

Oktyabr:

05.10.2024 Müəllimlər günü
18.10.2024 Azərbaycanın Müstəqilliyinin Bərpası Günü
31.10.2024 “Helloween” bayramı

Noyabr:

08.11.2024 Qələbə Günü
09.11.2024 Bayraq Günü
12.11.2024 Konstitusiya Günü
08.11 - 25.11.2024 COP29

Dekabr:

09.12.2024 Xeyriyyə yarmarkası
31.12.2024 Dünya Azərbaycanlıların Həmrəylik Günü

## LANDAU School "Zabitlər" korpusu

| Cədvəl (Bazar ertəsi – Cümə) | |
|---|---|
| 8:10 – 8:20 Məktəbə gəlmə və qeydiyyat | |
| **I növbə**/1-ci dərs | 8:20 – 9:40 |
| **I növbə**/2-ci dərs | 9:45 – 11:05 |
| **I növbə**/3-cü dərs /**II növbə**/1-ci dərs | 11:10 – 12:30 |
| **II növbə**/2-ci dərs | 12:45 – 14:05 |
| **II növbə**/3-cü dərs | 14:10 – 15:30 |
| Support dərslərində iştirak əsas tədris vaxtı bitdikdə. | |

## LANDAU School “Gənclik” korpusu

| Cədvəl (Şənbə) | | |
|---|---|---|
| 8:10 – 8:20 Məktəbə gəlmə və qeydiyyat | | |
| 1-ci dərs | 8:20 – 9:40 | |
| 2-ci dərs | 9:45 – 11:05 | |
| 3-cü dərs | 11:10 – 12:30 | |
| 4-cü dərs | 12:45 – 14:05 | |
| 5-ci dərs | 14:10 – 15:30 | |

## E. “HAZIRLIQ MƏKTƏBİ”nin qaydaları

1. Bir-birinizə hörmətlə yanaşın;
2. Bir-birinizə qayğı göstərin;
3. Məktəb mülkiyyəti ilə diqqətlə davranın;
4. Məktəb dəhlizlərində və pilləkanlarında qaçmayın;
5. İşlərinizdə dəqiq olun;
6. Məktəb binasında təmizliyə riayət edin;
7. Məktəbə giriş və çıxış zamanı şagird RFID kartı ilə qeydiyyatdan keçməlidir;
8. Məktəb binasını icazəsiz tərk etməyin;
9. Lazım olmadığı təqdiqda sanitar otaqlarda çox qalmayın;
10. Məktəbə giriş zamanı mobil telefonunuzu resepşn şöbəsinin əməkdaşına təhvil verin.

## F. Sinif otağında davranış qaydaları

**Zəruridir:**

a. Müəllimə və bir-birinizə qulaq asmaq;
b. Dərsdə fəal iştirak etmək;
c. Dərs ləvazimatlarını vaxtında hazır etmək;
d. Özünüzü təmkinli və nümunəvi aparmaq;
e. Çantaları partanın altına qoymaq;
f. Sanitar otağa getmək üçün icazə almaq;
g. Məktəb binasında təmizliyə riayət etmək;
h. Planşetlərdən yalnız tədris məqsədləri üçün istifadə etmək

**Qadağandır:**

- Saqqız çeynəmək;
- Sudan başqa digər içkilər gətirmək;
- Sinifdə qida qəbul etmək;
- Mobil telefonlardan istifadə etmək (ciddi ehtiyac olarsa, məktəb ofisinə müraciət etmək lazımdır);
- Dərs planşetlərinə oyun və ya sosial şəbəkə tətbiqlərini yükləmək;
- Tədris prosesi zamanı dərs qaydalarını pozmaq;
- Məktəb ərazisinə kəsici-deşici alətlər gətirmək.

## G. Məktəb geyimi kodeksi / Məktəbli forması / Xarici görünüş

a. Köynək, polo köynək və hudi – icazə verilir;
b. Şalvar, cins şalvar – icazə verilir;
c. Dərin dekolteli, qısa, bretelkalı top – qadağandır:
d. Cırıq cins şalvar, losinlər, şortlar - qadağandır;
e. Məktəbə idman paltarında gəlmək qadağandır;
f. Ətək – icazə verilir (çox qısa və çox dar ətəklər istisna olmaqla);
g. Hündür dikdaban ayaqqabılar və səndəllər – qadağandır;
h. Çox cəlbedici zinyət əşyaları, parlaq makiyaj və uzun dırnaqlar - qadağandır;
i. Kiçik ölçülü sırğalar (təhlükəsizlik üçün), saat, nazik bilərziklər, seplər – icazə verilir;
j. Smart-saatlar - qadağandır.

## HİSSƏ 2: “LANDAU SCHOOL” SİYASƏTİ VƏ PROSEDURLARI

### I. Məktəbə qəbul, siniflərə yerləşdirmə və məktəbdən xaric etmə

MƏKTƏBƏ QƏBUL:

"Admission" departamenti tərəfindən keçirilən qəbul imtahanı əsasında həyata keçirilir.

SİNİFLƏRƏ YERLƏŞDİRMƏ:

“Zabitlər” korpusunda sinif otaqlarımız maksimum 15-18 şagird üçün nəzərdə tutulub.

Şagirdlər aşağıdakı meyarlara əsasən siniflərə (qruplara) yerləşdirilir:

- Gender balansı;
- İngilis dili və riyaziyyat üzrə bilik səviyyəsindən asılı olaraq qruplara bölünmə.

MƏKTƏBDƏN ÇIXARILMA:

9-10-cu sinif şagirdlərinin nailiyyət göstəriciləri aşağı olarsa (imtahan göstəriciləri 50%-dən aşağı olmamalıdır), şagirdə dəstək dərsləri və müvafiq imtahanın yenidən verilməsi təklif olunur. Etiraz edərsə, sonrakı təhsil üçün məsuliyyət tamamilə valideynlərin (qəyyumların) üzərinə düşür. Əgər dəstək dərsləri istənilən nəticəni vermirsə və şagirdin akademik göstəriciləri 0%-dən aşağıdırsa, o, məktəbdən xaric edilir.

Məktəbdən xaric edilmə akademik səbəblərə görə də baş verə bilər: yekun qiymətləndirmədə "2" və üçdən çox "3" olmamalıdır.

Şagirdlər, həmçinin, nizam-intizam və davranış problemləri səbəbindən də məktəbdən çıxarıla bilərlər.

Şagirdlər həmçinin davamiyyət 80%-dən aşağı olduğu halda da məktəbdən çıxarıla bilərlər.

### J. Akademik dəstək məşğələləri

Akademik dəstək məşğələləri məktəbin tədris bölməsi tərəfindən təşkil olunur və təmin edilir. Yardıma ehtiyacı olan şagirdlər aşağıdakı meyarlara əsasən müəyyən olunur:

- Müəllimin qərarı: şagird təlim standartlarına cavab vermir;
- Yarımil üçün aralıq (ayda bir dəfə) və yekun test nəticələrinin təhlili. Şagirdin nəticəsi 50%-dən aşağı olarsa;
- Şagird dərsləri üzrlü səbəbdən (xəstəliyə görə) buraxıbsa;

Məktəb rəhbərliyi valideynin (qəyyumun) dəstək dərsinin təyin edilməsi barədə xahişini nəzərdən keçirir və vəziyyəti təhlil etdikdən sonra müvafiq qərar qəbul edir (dəstək dərsləri daimi xarakter daşımır).

- Dəstək məşğələləri əsas fənn üzrə olmaqla hər şagird üçün ay ərzində 6 dəfədən çox olmayaraq təşkil edilə bilər;
- Əgər şagirdin nəticələri hələ də aşağı olaraq qalırsa, direktor müavini və direktor vəziyyəti valideynlərlə müzakirə edirlər;
- Şagird xəstəliyə görə dərslərə gəlmədikdə, ödənişsiz dəstək dərsləri yalnız tibbi arayış təqdim edildiyi halda təyin edilə bilər.

## K. Davamiyyət

Məqsədimiz bütün şagirdlər üçün 100% davamiyyətə nail olmaqdır. Şagirdlərə və onların valideynlərinə (qəyyumlarına) dərslərə müntəzəm və vaxtlı-vaxtında davamiyyətin vacibliyi haqqında məlumat vermək üçün bütün imkanlardan istifadə ediləcək.

**Davamiyyətə nəzarət:**

Hər səhər şagirdlərin davamiyyəti RFID kart vasitəsilə qeydə alınır. Tədris gününün əvvəlində şagirdlərə İnzibati şöbə tərəfindən ayrıca olaraq nəzarət ediləcək, bundan əlavə, gün ərzində müəllimlər də məlumat verirlər.

**Gecikmə və dəqiqlik:**

Vaxtında gəlmək çox vacibdir. Şagirdlərin ilk dərsin başlanmasından ən az 15 dəqiqə əvvəl məktəbə gəlmələrini tövsiyə edirik.

- Gecikmiş şagirdin qeydiyyat başa çatdıqdan sonra gəlməsi dərsdə icazəsiz iştirak etməmə kimi qeydə alınacaq;
- 15 dəqiqədən artıq gecikmiş şagird 1-ci dərsə buraxılmır;
- 15 dəqiqə və daha çox gecikən şagirdlər 3-cü xəbərdarlıqdan sonra evə göndəriləcək;
- Cəzalandırma tədbirlərinə dərsdən sonra əlavə məşğələlər (“detention”) də daxildir;
- Həkim ziyarətləri və görüşlərinin mümkün olduğu qədər dərs saatlarından xaric həyata keçirilməsi tövsiyə olunur;
- Şagird tibii göstəricilərlə əlaqədar olaraq 3 gündən artıq dərsə gəlmirsə, valideyn (qəyyum) sağlamlıq haqqında tibbi arayış təqdim etməlidir;
- Şagird tibbi göstəricilərlə bağlı 3 gündən az müddətdə dərslərdə iştirak etmirsə, valideyn (qəyyum) direktora ərizə ilə müraciət etməlidir;
- Şagird uzun müddət ailə məsələləri ilə əlaqədar olaraq, tədris prosesindən kənarda qaldıqda, valideyn (qəyyum) direktora ərizə ilə müraciət etməli və bunun səbəbini əsaslandırmalıdır. Bu zaman şagird məktəb rəhbərliyi tərəfindən verilən yoxlama işlərini

yazmalıdır.

- Şagird üzrlü səbəb olmadan və valideynləri tərəfindən xəbərdarlıq olmadan 15 dəqiqədən çox gecikirsə, dərsə gəlməmiş hesab olunur.
- Şagird ikinci dərsə gecikirsə, o, dərsin bitməsini məktəbin dəhlizində gözləyəcək.
- Yarımil ərzində dərsdə iştirakın olmamasının ümumi sayı 20%-dən çox olmamalıdır. Bu həddi keçərsə, şagird bütün əsas fənlərdən əlavə imtahan verməlidir.

## L. Qiymətləndirmə və imtahanlar

**"LANDAU School"-da qiymətləndirmənin keçirilməsi:**

Qiymətləndirmə il ərzində davamlı olaraq həyata keçirilir.

**Formativ qiymətləndirmə:**

Müəllimlər ay ərzində bir dəfə olmaqla LANDAU School-un onlayn platforması sistemi vasitəsilə şagirdlərin dərsdə iştirakını qiymətlənirir, ev tapşırıqlarını göndərir və rəy yazırlar.

**Summativ qiymətləndirmə:**

**DAXİLİ QİYMƏTLƏNDİRMƏ:**

Hər ayın sonunda hər bir şagird üçün nailiyyət hesabatı tərtib olunur. Hər yarımilin əvvəlində şagirdlər üçün tədris hədəfləri qoyulur və yarımilin sonunda şagirdlərdən bu hədəflərə çatmaları gözlənilir (fənndən asılı olaraq).

KSQ (aralıq imtahanı) – ayda bir dəfə olmaqla keçirilir;
BSQ (yarımil üçün yekun imtahan) – hər yarımilin sonunda keçirilir.

**Fənn üzrə orta nailiyyət göstəricilərinin hesablanması:**

Yekun qiymətləndirmə yekun imtahan nəzərə alınmaqla yarımil ərzində bütün aralıq imtahanların ədədi orta qiyməti kimi müəyyən edilir.

Toplanan balların verilən qiymətlərlə uyğunluğu:

0-30 bal – "2"
31-60 bal – "3"
61-80 bal – "4"
81-100 bal – "5"

**Qiymətləndirmənin şəffaflığı, nəzərdə tutulan məqsədlərin həyata keçirilməsinin müzakirəsi:**

Hər bir şagirdə hər yarımil üzrə şəxsi nailiyyət haqqında hesabat təqdim olunur.

Akademik nailiyyət haqqında valideynlərə (qəyyumlara) aşağıdakı formada hesabat verilir:

- Nailiyyət haqqında müntəzəm hesabatlar (ayda 1 dəfə olmaqla);
- Valideynlərlə görüşlər və qarşıya qoyulmuş məqsəd və vəzifələrin həyata keçirilməsi barədə müzakirələr;
- Şagird imtahanlarda üzrlü səbəb olmadan iştirak etmədikdə, nəticəsi “0” bal hesab olunur. Tibbi arayış və ya valideynin əsaslandırılmış ərizəsi olarsa, şagirdə yenidən imtahan vermək imkanı verilir.

## M. Davranış siyasəti

Məktəbimizdə valideynlərlə müqavilənin pozulmasına gətirib çıxara bilən mübahisələr və digər ciddi qanunsuz hərəkətlərə qarşı “sıfır tolerantlıq” siyasəti tətbiq edilir. “LANDAU School”-da qınağa səbəb ola biləcək davranış üç səviyyədə qruplaşdırılır:

| **Səviyyə 1**<br>**Kiçik pozuntular** | **Səviyyə 2**<br>**Pozuntular** | **Səviyyə 3**<br>**Ciddi pozuntular** |
|---|---|---|
| ● İtaətsizlik<br>● Ədəbsiz ifadələr<br>● Sinifdən icazəsiz çıxma | ● Məktəb qaydalarının sistematik qaydada pozulması<br>● Sinif otaqlarında və məktəbin digər sahələrində uyğun olmayan davranış<br>● Yersiz kobud ifadələr, aqressiya | ● Siqaret çəkmək<br>● Oğurluq<br>● Zorakılıq / kiber zorakılıq<br>● Fiziki zorakılığa səbəb olan qeyri-rəsmi münasibətlər |

| | | |
|---|---|---|
| • Elektron avadanlıqlardan icazəsiz istifadə<br>• Məktəb əmlakına zərər vurmaq<br>• Dikbaşlıq<br>• Sinif otaqlarının sanitar vəziyyəti qaydalarına əməl edilməməsi<br>• Sinif otağında qida qəbulu, saqqız çeynəmə<br>• Uyğun olmayan geyim<br>• Verilmiş tapşırıqların vaxtında yerinə yetirilməməsi<br>• Ev tapşırığını yerinə yetirməmək<br>• Gecikmə<br>• Sinifdə qaydaların pozulması | • Dərsə gəlməmə<br>• İrqi və cinsi şərhlər<br>• Məktəb avadanlığının təyinatı üzrə istifadə edilməməsi və onlara zərər vurulması<br>• Test yoxlamaları zamanı köçürmə<br>• Plagiat | • Qadağan olunmuş əşyaların məktəbə gətirilməsi<br>• Mobil cihazlardan və kalkulyatorlardan icazəsiz istifadə |
| **Cəzalandırma tədbirləri** | | |
| **Səviyyə 1 (Yüngül)** | **Səviyyə 2** | **Səviyyə 3 (Ciddi)** |
| Şifahi xəbərdarlıq, danlama | Yazılı xəbərdarlıq<br><br>Valideynlərə zəng | Yazılı xəbərdarlıq<br><br>Valideynlərə zəng<br><br>Valideynlərin dəvət olunması |
| Mütəmadi davranış pozuntuları səbəbindən şagirdi dərsdən sonra saxlamaq | Mütəmadi davranış pozuntuları səbəbindən şagirdi dərsdən sonra akademik tapşırıqlar verməklə saxlamaq | Dərsdən sonra şagirdi akademik tapşırıqları həll etməsi üçün saxlamaq |

| | | |
|---|---|---|
| Fənn müəllimi, sinif rəhbəri ilə konsultasiya<br><br>Məktəb məsləhətçisi ilə konsultasiya | Sinif rəhbəri, direktor müavini, məktəb məsləhətçisi ilə söhbət | Məktəb məsləhətçisi və məktəb direktoru ilə söhbət |
| Sinifdə akademik tapşırıqlar | Məktəbdən sonra akademik tapşırıqlar | Məktəbdən sonra akademik tapşırıqlar |
| Gündəlik hesabat yoxdur | Həftə ərzində yuxarıdakı görüşlər üzrə gündəlik hesabat | 2 həftə ərzində yuxarıdakı görüşlər üzrə gündəlik hesabat |
| Kənarlaşdırma yoxdur | Kənarlaşdırma yoxdur | Məktəbdən kənarlaşdırma |

## M. Şikayətlər

"LANDAU School"-un aydın dəyərləri və bu dəyərlərin cəmiyyətə çatdırılmasında yüksək gözləntiləri var. Hər hansı bir problem yaranarsa, məktəb onun həllinə kömək edə bilmək üçün bu haqda bilməlidir. Biz həmişə sizin hər bir müraciətinizdən nəticə çıxaracağıq və sizin istəklərinizi nəzərə alaraq, prosedurlarımızı təkmilləşdirməyə çalışacağıq. Buna görə də, əgər hər hansı bir şagird, valideyn (qəyyum) və ya işçi heyəti məktəbin fəxr etdiyi yüksək standartlardan kənara çıxdığını hiss edərsə, onların şikayət prosedurlarına əməl etmələri tövsiyə olunur.

Hesab edirik ki, problemlərin əksər hissəsi qeyri-rəsmi yolla, yəni məktəbin fəaliyyəti üçün məsuliyyət daşıyan işçi heyəti ilə birbaşa ünsiyyət yolu ilə həll edilə bilər. Əgər şikayətçi ilkin müraciətin nəticələrindən razı qalmırsa, bu zaman o, şikayət prosedurunun rəsmi mərhələsinə müraciət edə bilər.

### ŞİKAYƏTLƏ ƏLAQƏDAR PROSEDURLAR:

**Qeyri-rəsmi mərhələ:**

Şikayətçi şikayətin məğzini məktəb ofisinə şifahi şəkildə bildirə və ya yaza bilər. Şagirdlər və ya onların valideynləri (qəyyumları) məktəb işləri üzrə ofis-menecer ilə əlaqə saxlamalıdırlar. Əgər şikayət daha ciddidirsə, valideyn məktəbin qaynar xətti ilə əlaqə saxlamalı və şikayəti "Customer Satisfaction" departamentinə yönləndirməlidir.

**Rəsmi mərhələ:**

Əgər şikayətçi qeyri-rəsmi mərhələnin nəticələrindən razı deyilsə, o, öz iddialarını (şikayətlərini) yazılı formada aşağıdakı qaydada təqdim edə bilər:

- Məktəbin direktoruna;
- "Customer Satisfaction" departamentinə;

Qeyri-müəyyənlik halı varsa, şikayətçilər müvafiq tədbirlərin görülməsi üçün məktəbin

direktoruna yazılı formada müraciət etməlidirlər. Əgər şikayət direktor ilə əlaqəlidirsə, şikayətlər yazılı formada direktorlar şurasına göndərilməlidir.

Hər bir halda, problemin məğzini və məsələnin niyə qənaətbəxş həll edilmədiyini izah etmək lazımdır.

Bütün şikayətçilər narazı olduqları məqamları contact@leznik.edu.az email ünvanına göndərə bilərlər və ya *3170 nömrəsi ilə əlaqə saxlaya bilərlər. Şikayət qəbul edildikdən sonra 10 iş günü müddətində baxılacaq və rəsmi cavabı gözləmə müddətində (bayram günlərində bu proses uzana bilər) şikayətçiyə bu müraciət ilə kimin məşğul olacağı barədə məlumat veriləcək.

## N. Sağlamlıq və təhlükəsizlik

- Bütün məktəb binaları kameralarla izlənilir (CC TV);
- Məktəb ərazisində siqaret çəkmək qadağandır;
- Məktəb ləvazimatları təhlükəsiz şəkildə və yalnız təyinatı üzrə istifadə edilməlidir;
- Sinfi tərk etməzdən əvvəl elektrik avadanlıqlarını, elektrik konnektorları, elektrik fişləri və rozetləri yoxlamaq lazımdır;
- İşçilər və şagirdlər binaya əsas girişdən daxil olurlar;
- Qonaqlar və gecikənlər yalnız əsas girişdən daxil olmalıdırlar.

**Yanğın zamanı insanların evakuasiyası ilə bağlı təlim və təhlükəsizlik:**

- Binanın daxilində təhlükəsizlik vacibdir və bunu təmin etmək üçün sistemlər yerində olmalıdır. Hər hansı yanğın və ya digər fövqəladə hadisə baş verərsə, həyəcan siqnalı işə düşəcək;
- Həyəcan siqnalını eşidən şagirdlər və işçilər dərhal binanı tərk etməli və təhlükəsiz ərazidə müəyyən edilmiş yerə təxliyə etməlidirlər;
- Yanğın zamanı şagirdlərə və işçilərə əşyalarını götürmələri üçün binaya qayıtmalarına icazə verilmir.

**Qadağan olunmuş və təhlükəli əşyalar:**

- Bıçaqlar, silahlar, bu cür əşyalara bənzəyən oyuncaqlar, kimyəvi maddələr və ya tibbi preparatlar (onlar məktəb ofisində qeydiyyata alınmalı və saxlanılması üçün tibb məntəqəsinə təhvil verilməlidir);
- Nə şagirdlərin, nə də işçilərin "İcazə verilən əşyaların siyahısı"-nda xüsusi olaraq qeyd edilməmiş hər hansı bir təhlükəli əşyanı məktəbə gətirmələrinə icazə verilmir.

## O. Ev tapşırıqları

Müəllimlər gündəlik olaraq hər fənn üzrə bütün şagirdlərə ev tapşırığı verirlər. Tapşırıqların yerinə yetirilməsi üçün müəyyən bir vaxt ayrılır.

**Ev tapşırıqlarının yerinə yetirilməməsi:**
Şagird ev tapşırığını yerinə yetirməyibsə, valideynə bu tapşırığın yerinə yetirilməsi məqsədilə müvafiq məlumat göndərilir. Şagird ikinci dəfə ev tapşırığını yerinə yetirməyibsə, dərsdən sonra ev tapşırığını yerinə yetirmək üçün məktəbdə qalacaq. Valideynlər bu barədə xəbərdar ediləcəklər. Tapşırıqlar müntəzəm olaraq yerinə yetirilmədiyi halda, şagirdə inzibati cəza verilir.

**Şagirdin vəzifələri:**

- Sinifdə ev tapşırığı üzrə təlimatlara diqqətlə qulaq asmaq;

- Tapşırığın vaxtında yerinə yetirilməsini və təhvil verilməsini təmin etmək;
- Davamlı inkişaf üçün əlindən gələn hər şeyi etməyə çalışmaq;
- Ev tapşırıqlarının yoxlanmasına qədər onlarla bağlı istənilən problemi həll etmək. Ehtiyac olarsa, kömək üçün müəllimə müraciət etmək;
- Şagird dərsdə iştirak etmədikdə ev tapşırığını öyrənməli və onu yerinə yetirməlidir.

**Valideynin (qəyyumun) vəzifələri:**

- Şagirdə ev tapşırığının yerinə yetirilməsində kömək etmək, lakin tapşırığı onun əvəzinə yerinə yetirməmək;
- Şagirdi, yuxarı siniflərə qalxdıqca, ev tapşırıqlarına qarşı daha məsuliyyətli olmağa və onları daha müstəqil şəkildə yerinə yetirməyə həvəsləndirmək;
- Şagirdin evdə işləməsi üçün müvafiq yer təmin etmək;
- Şagirdləri ev tapşırıqlarını vaxtında yerinə yetirməyə həvəsləndirmək və bu tələblərin yerinə yetirilmədiyi hallarda cəza tədbirlərinin verilməsində məktəbi dəstəkləmək.

## P. Tibbi yardım

Məktəbdə saat 08:00-dan 17:30-a qədər fəaliyyət göstərən tibb otaqlarında ilk tibbi yardım və tibbi müayinə həyata keçirilir. Məktəb həkimi/tibb bacısı olmadığı zaman, ilk tibbi yardım üzrə təlim almış əməkdaşlardan biri ilk tibbi yardımın göstərilməsi üçün məsuliyyət daşıyır.

Əgər şagirdə müəyyən bir zaman müddətində peşəkar qulluq lazımdırsa, məktəb həkimi/tibb bacısı müvafiq tədbirləri görəcəklər. Buraya təcili yardım, mütəxəssis təyinatı və ya xəstəxanada müayinə daxildir.

Şagirdlər özlərini pis hiss etdikdə dərhal müəllimə məlumat verməli və həkimə/tibb bacısına müraciət etməlidirlər.

Valideynlər övladlarını məktəbə gətirərkən onların tibbi sağlamlığı – xroniki xəstəlikləri, allergiya, şəkərli diabet və s. haqqında ətraflı məlumat vermək üçün məsuliyyət daşıyırlar.

## Q. Onlayn idarəetmə sistemi (LANDAU School onlayn platforması sistemi)

### LANDAU School Onlayn platforması sistemi nədir?

“LANDAU School”-un onlayn idarəetmə sistemi şagirdlər, valideynlər, müəllimlər və məktəb rəhbərliyi arasında mühüm ünsiyyət mənbəyi hesab olunur.

Bu, davamiyyəti izləməyə imkan verən və hədəfləri təyin edən qeydlərin aparıldığı onlayn platforma və alternativ üsuldur. Şagird, valideyn, müəllim və məktəb rəhbərliyi sistemə giriş hüququna malikdirlər. Müəllimlər valideynlərə mesaj və ya rəy göndərə, ev tapşırıqlarını yükləyə və ya nəticələri bildirə bilirlər. Summativ qiymətləndirmə üzrə məlumatlar “LANDAU School Hazırlıq Məktəbi”nin qiymətləndirmə siyasətinə uyğun olaraq təqdim olunur. Şagirdlər test nəticələrinə giriş hüququ əldə edə bilərlər. Valideynlər müəllimlərlə əlaqə saxlaya, şagirdlərin rəylərini və test nəticələrini yoxlaya və məktəb xəbərlərini əldə edə bilirlər.

Tədris ilinin əvvəlində (sentyabr, 2024-cü il) bütün şagirdlər və valideynlər öz istifadəçi adlarını və şifrələrini sistemə daxil edəcəklər. Onlar www.landauschool.az saytına daxil olmaqla və ya “Google Play Market” / “Apple Store”-dan “LANDAU APP” tətbiqini yükləməklə sistemə daxil ola bilərlər.
Şagirdlər və valideynlər **1 oktyabr, 2024-cü il** tarixinə qədər istifadəçi adlarını və şifrələrini əldə edəcəklər.

**Vacib qeyd:** Valideynlər və şagirdlərin fərqli istifadəçi adları və şifrələri var. Xahiş edirik, şifrələrinizi başqa insanlarla paylaşmayın.

### ŞAGİRDİN VƏZİFƏLƏRİ:

- LANDAU School onlayn platformasında **şagird hesabını** mütəmadi olaraq yoxlamaq;
- Ev tapşırıqlarını yoxlamaq;
- Müəyyən suallara aydınlıq gətirmək istədikdə, müəllimlərə mesaj göndərmək;
- Şagird hesabları bloklandıqda, şifrələri itirildikdə və ya hesabda digər texniki problemlər baş verdikdə, bu barədə dərhal direktorun assistentinə məlumat vermək lazımdır.

### VALİDEYNİN VƏZİFƏLƏRİ:

- LANDAU School onlayn platformasında **valideyn hesabını** mütəmadi olaraq yoxlamaq;
- Müəllimlər tərəfindən yazılmış rəylərə baxmaq;
- Müəllimlərin fikirlərini dəqiqləşdirmək istədikdə, müəllimlərə mesaj göndərmək;
- Şagirdin test nəticələrini və akademik hesabatlarını yoxlamaq;
- Hesabları bloklandıqda, şifrələri itirildikdə və ya hesabda digər texniki problemlər baş verdikdə, bu barədə dərhal direktorun assistentinə məlumat vermək lazımdır.

## R. Məktəb yeməkxanası: yemək və içkilər

### MƏKTƏBDƏ QİDALANMA SİYASƏTİ

**Əsas məlumat:**

LANDAU School-da şagirdlər evdən yemək gətirə, ya da nahar vaxtı məktəb bufetindən yemək ala bilərlər.

Dərs zamanı sinif otaqlarına yemək və içkilər buraxılmır. Əməkdaşlar şagirdlərin sinifə yemək gətirdiyini görsələr, dərhal müvafiq tədbirlər görməlidirlər.

Sinif otaqlarında su şüşələrinə icazə verilir.

Məktəb ərazisində saqqız çeynəmək qadağandır.

**İçkilər:**

Meyvə suyu və süd istisna olmaqla, məktəbdə yalnız suya icazə verilir. Bütün mərtəbələrdə su dispenserləri mövcuddur və şagirdlər öz termoslarını su ilə doldura bilərlər. Yalnız termoslara üstünlük verməyiniz tövsiyə olunur.

**Məktəbdə aşağıda qeyd olunan içkilərin istifadəsi qadağandır:**

- Alkoqollu içkilər;
- Qazlı və ya yüksək şəkər tərkibli içkilər;
- Enerji içkiləri.

**Mükafatlar:**

LANDAU School yeməkdən şagirdin yaxşı davranış və ya nailiyyətlərə görə mükafat qismində istifadə edilməsinə icazə vermir. Məktəb bu hallarda digər müsbət təsirli mükafatlardan (kitablar, sertifikatlar, fəxri lövhə və s.) istifadə edir.

**Özəl günlərin qeyd olunması:**

Məktəbimiz önəmli anların qeyd edilməsinin vacibliyini qəbul edir.

**Məktəb tədbirləri:** Məktəb tədbirləri zamanı şagirdlər satış üçün ərzaq, xəmir bişintiləri, tortlar, hazır məmulatlar gətirə bilərlər. Bu barədə valideynlər və şagirdlər əvvəlcədən məlumatlandırılacaqlar.

## S. Doğum günləri

- Məktəbdə şagirdlərin doğum günlərinin qeyd edilməsi qadağandır;
- Məktəbə ad günü ilə bağlı yemək gətirmək qadağandır;
- Ad günü ilə əlaqədar sinif otağını bəzəmək qadağandır.

## Bayramlar

Bayram günlərində müəllimlərə yalnız gül və şirniyyat hədiyyə etməyə icazə verilir. Bu, yalnız aşağıdakı tarixlərdə mümkündür:
• Dərs ilinin başlanğıcı;
• Müəllimlər Günü;
• 8 mart;
• Novruz Bayramı;
• Son tədris günü.

**Müəllimlərin doğum günündə onlara gül və ya hədiyyə vermək qadağandır.**

## T. Qiymətli əşyalar

Məktəbin şagirdlərin gətirdiyi qiymətli əşyalar, pullar, zinət əşyaları üçün məsuliyyət daşımadığını nəzərə almağınız xahiş olunur. Şəxsi planşetlər, mobil telefonlar və digər bu kimi əşyalar sahibinin adı və ya digər açıq identifikasiya forması ilə qeydə alınır.

## U. Məktəbdəki elektron avadanlıqlar

### a. Mobil telefonlar:

Məktəb binalarında şagirdlərin mobil telefondan istifadəsinə icazə verilmir. Səhər qeydiyyatı zamanı, mobil telefonlar içəri daxil olarkən (siniflər üzrə) reception-a təhvil veriləcək. Ümumiyyətlə, mobil telefonların məktəbə gətirilməsi tövsiyə olunmur;

Məktəbdə mobil telefondan istifadə edən hər bir şagird barədə məktəb ofisinə məlumat veriləcək. Tapıldığı halda SİM kartlı mobil telefon və ya planşet müəllim və ya məktəb rəhbərliyi tərəfindən müsadirə olunacaq və yalnız valideynə təhvil veriləcək.

**Əgər bu hal təkrar olunarsa, mobil telefon cari yarımilin sonuna qədər məktəbdə saxlanılacaq.**

### b. Planşetlər:

Məktəbdəki şagirdlərin təlim prosesinin həyata keçirilməsinin zəruri bir hissəsi kimi planşetlərə (Android) ehtiyacları ola bilər. Bütün milli dərslikləri planşetlərə trims.edu.az saytından yükləyə bilərsiniz.

Planşetin ölçüsü: minimum 10 düym (1 düym = 2.54 sm);

Tabletin tutumu/yaddaşı: minimum 64 GB.

**Vacib qeyd:**

Şagirdlər planşetlərini tam enerjili halda gətirməlidirlər.

Şagirdlərə planşetlərinə oyunlar, sosial şəbəkələr, “WhatsApp” və təhsillə əlaqəsi olmayan digər tətbiqlər yükləməyə **İCAZƏ VERİLMİR**. Bu, ciddi şəkildə yoxlanılır.

Zədələnmiş və ya itirilmiş planşetlər üçün məktəb yox, planşetin sahibi məsuliyyət daşıyır.

## AA. Məktəb ləvazimatları

Məktəb ləvazimatlarına aşağıdakılar daxildir:

--- Zolaqlı dəftərlər;
--- Xanalı dəftərləri;
--- A4 formatında qovluqlar (100 fayl əlavə olunmaqla);
--- Qələm;
--- Karandaş;
--- Karandaş yonan;
--- Pozan;
--- Xətkeş;
--- Planşet (enerjili vəziyyətdə);
--- Elektron kitablar.

- Şagirdlər (valideynlər) təqdim edilmiş link vasitəsilə bütün dərslikləri öz planşetlərinə yükləməlidirlər;
- Şagirdlər (valideynlər) eyni zamanda kitabları özləri çap edə və ya nüsxələrini sifariş edə bilərlər.

## BB. Valideynlərlə əlaqə

Valideynlərlə əlaqə şagirdin nailiyyətləri barədə fikir bildirməklə onlayn idarəetmə sistemi vasitəsilə həyata keçirilir. Ehtiyac yarandıqda, məktəb rəhbərliyi valideynlərlə və fənn müəllimləri ilə görüş təşkil edir.

Valideyn iclaslarının tarixi əvvəlcədən bildirilir. Bütün valideynlərin bu iclaslarda iştirak etməsi gözlənilir.
Hər sinifdə valideynlərə operativ məlumat verilməsi üçün qapalı "WhatsApp" qrupları yaradılacaq. Valideynlərə məlumat yalnız məktəb işləri üzrə ofis-menecer tərəfindən veriləcək.

## CC. Məktəb binaları

LANDAU School "Hazırlıq Məktəbi"nin şagirdləri **"ZABİTLƏR" və "GƏNCLİK" korpuslarında** təhsil alacaqlar.

"LANDAU School" Tədris Mərkəzinin hazırda 10 korpusu mövcuddur:

1. GƏNCLİK KORPUSU
2. ZABİTLƏR KORPUSU
3. BAYIL KORPUSU
4. NƏRİMANOV KORPUSU
5. SEA BREEZE KORPUSU
6. AĞ ŞƏHƏR KORPUSU
7. PRESCHOOL XƏTAİ
8. PRESCHOOL BAYIL
9. PRESCHOOL /KİNDERGARTEN SEA BREEZE
10. PRESCHOOL ÖZBƏKİSTAN

## EE. Milli himn

"LANDAU School"un müxtəlif regionlardan olan bütün şagirdlər üçün beynəlxalq təlim proqramı təklif etməsinə baxmayaraq, biz eyni zamanda, tolerant, qayğıkeş, vicdanlı və vətənpərvər gənclər yetişdirməyə çalışırıq. Hər bazar ertəsi, dərs günü başlamazdan öncə, şagirdlər, müəllimlər və məktəbin işçi heyəti Azərbaycanın milli himnini birlikdə dinləyir və ifa edirlər. Bütün şagirdlərimizə xatırlatmaq istərdik ki, bu zaman səssiz və sakit dayanmaq, himnin sözlərini öyrənmək lazımdır.

| **Musiqi: Üzeyir Hacıbəyov**<br>**Sözlər: Əhməd Cavad** |
|---|
| Azərbaycan! Azərbaycan!<br><br>Ey qəhrəman övladın şanlı Vətəni!<br><br>Səndən ötrü can verməyə cümlə hazırız! Səndən ötrü qan tökməyə cümlə qadiriz!<br><br>Üçrəngli bayrağınla məsud yaşa! Üçrəngli bayrağınla məsud yaşa!<br><br>Minlərlə can qurban oldu, Sinən hərbə meydan oldu!<br><br>Hüququndan keçən əsgər, Hərə bir qəhrəman oldu!<br><br>Sən olasan gülüstan, Sənə hər an can qurban!<br><br>Sənə min bir məhəbbət Sinəmdə tutmuş məkan!<br><br>Namusunu hifz etməyə, Bayrağını yüksəltməyə,<br><br>Namusunu hifz etməyə, Cümlə gənclər müştaqdır!<br><br>Şanlı Vətən! Şanlı Vətən!<br><br>Azərbaycan! Azərbaycan! Azərbaycan! Azərbaycan! |